***Cavid Vəkil oğlu Bağırzadə***
*Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*
E-mail: cavid.bagirzade@gdu.edu.az

# QAFQAZ ALBANİYASININ İLK ORTA ƏSR TSRİ (SRİ) ŞƏHƏRİ HAQQINDA
## (mənbə məlumatları və tarixi – arxeoloji tədqiqatlar əsasında)

**Açar sözlər:** Qafqaz Albaniyası, Tsri şəhəri, Xocavənd rayonu, Ağdam rayonu, Arsak, tarixi – coğrafi məlumatlar

**Ключевые слова:** Кавказская Албания, город Цри, Ходжавендский район, Агдамский район, Арцах, историко-географические сведения.

**Key words:** Caucasian Albania, Tsri city, Khojavend region, Aghdam region, Arsak, historcal – geograpical data.

Qafqaz Albaniyasının həm antik, həm də ilk orta əsr yaşayış yerlərinin öyrənilməsi, mənbələrdə adları çəkilən çoxsaylı yaşayış yerlərinin lokallaşdırılması, onların tarixi-arxeoloji tədqiqi bu gün də öz elmi aktuallığını saxlamaqdadır. Belə ki, müxtəlif mənbələrdə adları ayrı–ayrı tarixi hadisələrlə əlaqədar olaraq çəkilmiş bir çox ilk orta əsr yaşayış yerlərinin – kəndtipli, şəhərtipli, şəhər və qalaların yerləri aparılmış tədqiqatlar nəticəsində müəyyənləşdirilmiş, onların tarixi-arxeoloji cəhətdən tədqiqi həyata keçirilmişdir. Bununla belə, Qafqaz Albaniyasının mənbələrdə adları dəfələrlə çəkilmiş bəzi yaşayış məntəqələri də vardır ki, onların yerləri hələ də məyyənləşdirilməmiş, belə yaşayış yerlərinin lokallaşdırılması məsələsində tədqiqatçılar arasında fikir müxtəlifliyi ortaya çıxmışdır. Belə yaşayış yerlərindən biri də Moisey Kalankatuklunun "Alban tarixi" əsərində dəfələrlə adı çəkilən ilk orta əsrlərin məşhur şəhərlərindən olan Tsri şəhəridir. Moisey Kalankatuklunun "Alban tarixi" əsərində Tsri şəhərindən bəhs edilərkən şəhər Tsri/Sri/Tri/İri şəklində adlandırılmışdır. Bu şəhərin lokallaşdırılması və tarixi–arxeoloji tədqiqi problemlərindən bəhs etməzdən əvvəl onun adı haqqında mülahizələri irəli sürərkən ilk növbədə onu qeyd etmək lazımdır ki, Moisey Kalankatuklunun "Alban tarixi" əsəri məlumdur ki, dövrümüzə orijinal dilində deyil, qarabarcaya çevrilmiş şəkildə gəlib çıxmışdır. "Alban tarixi" dövrümüzə qədər keçdiyi uzun tarixi yolda üzü köçürülərkən ayrı–ayrı erməni din xadimləri və nasixləri tərəfindən qərəzli və məqsədyönlü şəkildə bəzi tarixi məsələlər ya kitabdan çıxarılmış, ya da onun üzünü köçürənlər tərəfindən orijinal mətndə qəsdən təhriflər edilmişdir. Aydın məsələdir ki, "Alban tarixi" mənbəyində adları çəkilən bir çox yaşayış yerlərinin adları heç də orjinal mətndə olduğu kimi, əcdadımızın – albanların dilində, başqa sözlə doğma dilimizdə, onun arxaik formasında, onun ilk orta əsrlər dövründəki lekisik şəkilində çəkilməmişdir. Bu zaman yaşayış yerlərinin adları, o cümlədən digər coğrafi adlar qrabarcaya ya sətri tərcümə edilmiş, ya da bu dilin qrammatik xüsusiyyətlərinə uyğunlaşdırılaraq onun fonetik imkanları şəklində ifadə edilmişdir ki, nəticə etibarı ilə yaşayış yerlərinin adları bir çox hallarda "Alban tarixi" mənbəyində başqa dildəki tələffüzü şəkilində öz əksini tapmışdır, fonetik dəyişikliyə məruz qalmışdır. Buna görədir ki, "Alban tarixi" mənbəyində eyni yaşayış yerinin adı ayrı–ayrı fəsillərdə qismən fərqliliklə çəkilmişdir. O cümlədən Tsri şəhərindən bəhs olunarkən onun adı fəsilin birində "Tsri", digərlərində isə "Sri", "İri" və ya "Tri" kimi təqdim olunur. Bu, çox güman ki, "Alban tarixi"nin mətninin üzünü köçürənin ayrı–ayrı nasixlər olmasından irəli gəlir. Buna görə də "Alban tarixi"nin ayrı-ayrı fəsillərində eyni yaşayış yerinin adı müxtəlif formalarda ifadə edilmişdir ki, yuxarıda qeyd etdiyimiz kimi, bu Tsri şəhərinin adının yazılışında da müşahidə olunur.

"Alban tarixi"ndə öz əksini tapmış toponimlərin şərhinə dair məqaləsində G.H.Mehdiyeva Tsri toponimi haqqında bəhs

edərəkən tədqiqatçı İ.M.Dyakonova istinad edərək göstərir ki, Tir və ya Tsri sözlərində çox güman ki, fonetik hadisə, səsartımı yəni proteza hadisəsi baş vermişdir. Tsri sözündə isə /ts/ hərf birləşməsi kiril əlifbasının /ц/ (məqalənin mətnində /ü/ kimi getmişdir, bunun sadəcə texniki xəta üzündən baş verdiyini düşünürük. – C.B.) səsini verir. Daha doğrusu bu erməni deyilişi ola bilər. Zəngilan rayonunda Oxçu çayının Araz çayına töküldüyü yerdə Tiri qalası vardır. XIX əsrdə isə burada Diri adlanan kənd var idi. Dini ədəbiyyatın Alban dilinə tərcüməsi ilk dəfə Suriya dilindən olmuşdur. “Dairə” sözü suriya dilindən keçən (qeyri xristian məbədlərin “Deyr” kimi adlandırılması da məlumdur. – C.B.) və monastır, məscid mənasını verən sözdür və bu da bəzi VII-X əsr Alban toponimlərində öz əksini tapmışdır. Məsələn, Daranak – Suriya sözü olan “Dairə” sözündən və İran mənşəli “nak” şəkilçisindən ibarətdir. Fonetik təhriflər nəticəsində “dairə”, “deyr” sözlərinə əsaslanaraq yaranan Tri, Tiri və hal-hazırdakı “Diri, Deyri”dən əmələ gəlmişdir [1, 63].

Bu siyahıya “Alban tarixi”ndə adı çəkilən Arsak vilayətindəki Darahıc/Darahoc kəndinin adını da əlavə etmək olar. Ümumiyyətlə, ilk orta əsrlər dövrünə aid yaşayış yerlərinin adlarında bu və ya digər dərəcədə Suriya (arami) və pəhləvi dillərində olan sözlərə, şəkilçilərə rast gəlinməkdədir ki, bu da həmin dövrdə Albaniyanın Suriya və Sasnilərlə əlaqələrinin geniş olması ilə bağlıdır. O da məlumdur ki, Albaniyada xristian dini kitablar ilk vaxtlar məhz arami dilində olmuşdur və arami dilindən yerli dilə tərcümə edilmişdir.

Ümumiyyətlə, adında “diri” ifadəsi olan orta əsr dini abidələri xeyli saydadır. Bunlardan məşhuru olaraq Şamaxı rayonu ərazisindəki Diribaba türbəsini də misal göstərmək olar. Burada sözün “diri” hissəsinin isim deyil, məkanın ifadəsi kimi qəbul etmək olar. Hesab etmək olar ki, Diribaba türbəsinin yerləşdiyi ərazi, qayalıq bu türbənin inşasından da qabaq ziyarətgah olmuş, çox güman ki, buradakı qayalıqda mağara – kaha ibadətgah yeri mövcud olmuşdur. Hər halda bütün bunları ehtimal etmək olar. Bəhs olunan ərazidə geniş tədqiqatlar aparılsa müəyyən nəticəyə gəlmək olar.

Ümumiyyətlə, Azərbaycanın müxtəlif bölgələrində “Diri” ifadəsi ilə başlanan bir çox yer adları (məsələn, Diridağ və s.) vardır ki, bunların da vaxtilə həmin yerlərdə ibadətgahın olması ilə əlaqəlidir.

Tsri toponiminin qeyd olunan fonetik təhlili haqqında onu deyə bilərik ki, “Alban tarixi”ndə göstərildiyi kimi, bu şəhər mühüm dini mərkəz olmuş, burada xristian müqəddəslərin cəsədləri yerləşdirilmiş və şəhərdə və onun yerləşdiyi vilayətdə çoxlu sayda xristian məbədləri mövcud olmuşdur. Bu faktlara görə, yəni burada çoxlu sayda “dairələrin, deyrlərin” olmasından irəli gələrək şəhərin “Diri/Tri/Tsri/Tir/Sri/İri” və s. fonetik şəkildə adlanması ehtimalı güclü görsənir.

“Alban tarixi”ndə “Tsri” şəkilində adı çəkilmiş şəhərin ilk orta əsrlər dövründə orijinalda necə adlanması haqqında, qeyd etdiyimiz kimi “Alban tarixi”nin dövrümüzə orjinalda olduğu kimi gəlib çıxmamasına görə indi qəti bir fikir söyləmək çox çətindir.

Azərbaycanın ilk orta əsrlər toponimiyasına aid ən qiymətli faktlara Suriya, gürcü və xüsusilə ərəb mənbələrində daha geniş təsadüf olunur. Bu cəhətdən ən maraqlı mənbələrdən biri də X əsr fars anonim abidəsi olan “Hüdud əl-Ələm”dir [2, 19]. Buna görə də ilk orta əsr yaşayış yerlərinin adlarının öyrənilməsi, onların toponimlərinin orjinal variantının müəyyənləşdirilməsi məsələlərini həll etmək üçün, o cümlədən Tsri oykoniminin aydınlaşdırılması üçün toponimlərin öz əksini tapdığı müxtəlif dillərin fonetik məsələlərinə diqqət yetirilməlidir. Digər tərəfdən isə, toponimlər ayrı – ayrı dillərə – mənbələrin yazıldığı və tərcümə edildiyi dillərə müəlliflər və ya onun üzünü köçürən katiblər tərəfindən bəzən də hərfi tərcümə edilmiş, bununla da orijinal deyiliş it-bata düçar olmuş və yaxud fonetik dəyişikliyə məruz qalmışdır.

Onu da qeyd etmək lazımdır ki, Qafqaz Albaniyasının ilk orta əsr Tsri/Sri/Tri şəhərinin adı öz orijinal variantından qarabarcaya çevrilmiş, qrabarcadan da ruscaya, ruscadan

da doğma dilimizə çevrilmişdir. Göründüyü kimi, ilk orta şəhərlərimizin təkcə tarixi məsələləri deyil, həm də adları tarixi taleyin dolaşıqlarından keçmişdir. Bunlara görə də Tsri şəhərinin toponimi, eləcə də digər həmdövr toponimlər məsələsini araşdırarkən ilk növbədə "Alban tarixi" mənbəyinin dövrümüzə gəlib çatan bütün variantları və onların tədqiqatçılar tərəfindən rus, ingilis və s. dillərə tərcümə edilmiş variantları tutuşdurmalı, burada toponimlərin necə ifadə edilməsi məsələləri həmin dillərin fonetik qanunauyğunluqları ilə təhlil edilməlidir. Məsələn, qrabarcadan tərcümə edilərkən bu dilidəki hansı səs və ya birləşməni rus dilindəki "ц" səsi ilə ifadə etmişlər? "Alban tarixi"nin qrabarcadan rus dilinə tərcümə edilmiş variantlarında Albaniyanın bu şəhəri "Цри" kimi ifadə edilmişdir. Şəhərinin adının necə adlanması və bu toponimi təhlil etməzdən əvvəl "Alban tarixi"nin dövrümüzə gəlib çatmış mətninin dili olan qarabarcanın fonetik imkanları və qanunauyuğunluqları nəzərdən keçirilməlidir.

Diri/Tri/Tsri/Tir/Sri/İri toponimi haqqında yuxarıda bəhs etdiklərimizə əlavə olaraq bu toponimin Alban dilinin (Qarqar-qıpçaq dili və ya arxaik dilimiz, Azərbaycan türkcəsinin arxaik ədəbi dili. Alban ədəbiyyatı mənbələrdən də məlumdur ki, qarqar-qıpçaq türkcəsində yazılmışdır. – C.B.) fonetik xüsusiyyətləri çərçivəsində təhlilini də aparaq. Onu da qeyd edək ki, Alban əlifbasının qədim türk-runik əlifbasının Qafqaz arealı olması, eləcə də Albaniyanın bütün tarixi coğrafiyasında, həmçinin bu əlifbanın izlərinə epiqrafik abidələr olaraq Cənubi Azərbaycan ərazisində də rast gəlinməsi məlumdur. Alban əlifbasının Alban dilində oxunması və onun elmi təhlilləri həyata keçirilmişdir [25; 26].

Alban, yəni qarqar-qıpçaq dilinin fonetik tərkibi ilə üzdən tanışlıq Moisey Kalankatuklunun (Kağankətlinin) bu dil barədə söylədiyi "boğaz səsləri ilə dolu dil" ifadəsinin doğruluğunu tam təsdiq edir. Sait sistemi eynən Azərbaycan türkcəsində olduğu kimi 9 səsdən ibarətdir və bizimki ilə tam eynidir. Onlardan dördü (a, ı, o, u) qalın, beşi isə incə saitdir (e, ə, i, ö, ü). Samit səslərin sayı müasir dilimizdəkindən bir səs çoxdur. Azərbaycan türkcəsində samit səslərin sayı 24-dürsə, alban (qarqar-qıpçaq) türkcəsində bu rəqəm bizdə olmayan, lakin indi də bir çox bölgələrimizdəki şivələrdə işlənməkdə olan "nq" qarışıq səsi hesabına 25-dir. Bu səs bir vaxt (əslində uzun əsrlər boyu, xüsusilə də orta əsrlər ədəbiyyatımızda rast gəlinməkdədir. – C.B.) Azərbaycan türkcəsində də məhsuldar olmuş və ərəb əlifbasının "sağır nun" hərfi ilə yazılmışdır. Buna alınma sözlərdə işlənən və rus dilindəki "ц" hərfini ifadə etdiyi səslə eynilik təşkil edən səsi də əlavə etmək olar. Bu səslə birlikdə samitlərin ümumi sayı 26 edir [27, 260]. Bu göstərilən fonetik təhlilə istinadən belə bir nəticəyə də gəlmək olar ki, suryani (arami) dilindən keçmə söz olan "Diri/Deyr" fonetik dəyişikliyə məruz qalaraq Diri/Tri/Tsri/Tir/Sri/İri şəklində ifadə edilmişdir. Bu sonuncu mülahizəmiz daha inandırıcı görünür. Təbii ki, bu məsələ ilə bağlı son sözü aparmaqda olduğumuz araşdairmaların, yaxın gələcəkdəki tədqiqatların nəticələri deyəcəkdir.

Qafqaz Albaniyasının ilk orta əsrlər dövründə böyük şəhərlərindən biri olan Tsri şəhərinin lokallaşdırılması ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər mövcud olmuşdur. Belə ki, tədqiqatçılardan Y.Cəfərov onu Xocavənd rayonunun Sor kəndi ilə, K.Patkanov Dağıstan ərazisindəki Sərir ilə, A.Kudryavtsev Dərbənd ilə, M.Hacıyev Saxur ilə eyniləşdirmişdir [3, 51-52]. Bu tədqiqatçıların Tsri şəhərinin lokallaşdırılması ilə bağlı fikirlərini təhlil edən tədqiqatçı M.Xəlilov haqlı olaraq qeyd edir ki, Tsri Dağıstandakı Sərir, Saxur və ya Dərbənd ilə eyniləşdirilə bilməz [3, 52]. Tədqiqatçı albanşünas F.C.Məmmədovaya görə Tsri şəhəri Qəbələdən cənubda idi [4, 210, qeyd 48].

M.C.Xəlilov Tsri şəhəri haqqında "Alban tarixi" mənbəyindəki məlumatların hamısını nəzərdən keçirmədən, "maskutlar" və "çilb" sözlərinə daha çox istinad edərək belə bir nəticəyə gəlir ki, Sri (yəni Tsri. M.Xəlilov şəhəri yalnız Sri adı ilə ifadə edir. C.B.) şəhəri sliv (çilb) qəbiləsi ərazisində, böyük bir dağın ətəyində yerləşirdi [3, 51]. Daha sonra fikrini əsaslandırmağa çalışaraq

göstərir ki, hələ I əsrdə Pliniy silvlərin Albaniyadan şimalda, lupenlərdən yuxarıda dağlıq ərazidə məskunlaşdığını göstərmişdir [3, 51]. Bununla da M.C.Xəlilov belə hesab edir ki, Tsri şəhərinin Xocavənd rayonunun Sor kəndi ilə eyniləşdirmək fikri ilə razılaşmaq olmaz [3, 51]. Tədqiqatçı M.C.Xəlilova görə Tsri şəhəri Albaniyanın Qəbələ vilayətindən şimalda, Maskut ölkəsindən qərbdə, həmsərhəd dağlıq bölgədə, çilb ölkəsində, indiki Dağıstanda yerləşmişdir [3, 52]. M.C.Xəlilov sonrakı tədqiqatlarında Tsri şəhərinin lokallaşdırılması ilə bağlı belə yazır: "Bu dövrdə (M.C.Xəlilov X-XII əsrin 30-cu illərini nəzərdə tutur. – C.B.) xristian albanların dini baxımdan erməni kilsəsinə tabe olmaları bir sıra hallarda qonşuları tərəfindən "erməni" adlandırmalarına rəvac vermişdir. Bizim fikrimizcə, Dağıstan ərazisindəki alban abidələrinin adlarında "erməni" sözü məhz belə meydana çıxmşdır. Məsələn, belə bir fərziyyə irəli sürmək olar ki, Axtı yaxınlığında yerləşmiş Erməni-şəhər arxeoloji abidəsi Albaniyanın tarixi Tsri şəhərinin xarabalıqları ola bilər. Məlumdur ki, Tsri bu ölkənin şimal hissəsində, çilb qəbiləsinin torpağında yerləşirdi." [6, 237]. Yeri gəlmişkən onu da qeyd edək ki, acınacaqlı haldır ki, çar Rusiyasının, Sovet dövrünün təbliğatının, onun saxta tarixşünaslığının incə tərəflərindən biri olaraq soydaşlarımız əcdadımızın bizə miras buraxdığı xristian dini abidələrimizi, xaçdaşlarımızı məhz xristianlıqla bağlı olduğu üçün "erməni kilsəsi, erməni xaçı" və s. kimi sözlərlə ifadə etmişlər. Tədqiqatlardan da məlumdur ki, Alban xristian abidələrindəki simvollar, xaçlar xristian dünyasının digər həmdövr abidələri ilə oxşarlıq təşkil etmir. Alban xristian abidələri öz memarlıq üslubiyyatına görə bütün tərəfləri ilə özünəməxsusluq təşkil edir və onlar bilavasitə bizə, əcdadımıza, bizim soyumuza məxsusdur.

Bununla bağlı olaraq, belə məsələlərlə bağlı olaraq tədqiqatçı X.D.Xəlili şahidi olduğu maraqlı bir epizod haqqında belə yazır: "Bu yaxınlarda iki tarix elmləri doktoru, albanşünas adlandırılan tarixçilərin şahidi olduğum bir söhbətində alimlərdən biri dedi ki: tay bəsdir, mən birmənalı yazacam ki, albanlar türkdür". İkinci alim isə canfəşanlıqla onu fikrindən döndərmək üçün "Sən belə etmə, canına yazığın gəlsin, elə yazsan, bir həftəyə səni ermənilər, gürcülər, ruslar öldürəcək" – dedi. Bu alimlərin hər ikisi təxminən 50 ilə yaxındır ki, Azərbaycan tarixinin qədim dövrünü tədqiq edir. Hər ikisi xeyli kitab müəllifidir." [24, 7]

Qeyd etmək lazımdır ki, Tsri şəhərində bir dindar – qatı xristian çilbin olması o demək deyil ki, bu şəhər çilblərin yaşadığı ərazidə yerləşir. Digər tərəfdən Moisey Kalankatuklu bu şəhərdə bir dindar çilbin yaşamasından və onun xristian etiqadında möhkəm olmasından bəhs etmişdir və məlumatdan aydın olur ki, çilb bu şəhərə gəlmişdir. Çünki Moisey Kalankatuklu göstərir ki, bu şəhərə hücum edən ərgeslər bu çilbi tutaraq deyirlər ki, sən də bizim ölkənin adamısan. [M.Kalankatuklu, I, 10]. Deməli, qeyd etdiyimiz kimi, gənc çilb bu şəhərə gəlmədir və Tsri şəhəri çilblərin yaşadığı bölgədə yerləşmirdi. Tsri şəhəri haqqında bir çox hadisələrlə əlaqədar olaraq ətraflı bəhs etmiş Moisey Kalankatuklu bu şəhər haqqında, onun təbii – coğrafi mövqeyi haqqında dəqiq və dolğun məlumatlar vermişdir. Belə ki, "Alban tarixi"nin birinci kitabın 10-cu, 26-cı, (26-cı fəslin məntiqi davamı olan 27 və 28-ci fəsilləri də bu siyahıya əlavə etmək olar.), 30-cu və 33-cü fəsillərində, ikinci kitabın 2-ci fəslində, üçüncü kitabın 16 və 17-ci fəsillərində Tsri şəhəri haqqında bəhs olunmuş, onun yerləşdiyi ərazi göstərilmişdir. Bu məlumatları göstərib təhlil etməzdən əvvəl onu qeyd etmək lazımdır ki, Y.Cəfərovun Tsri şəhərinin Xocavənd rayonu ərazisində yerləşdirməsi fikri daha güclü, əsaslı və məntiqidir. Çünki Moisey Kalankatuklunun verdiyi məlumatlara görə Tsri şəhəri tarixi Arsak vilayətində yerləşirdi ki, şəhər Araz çayına yaxın olmalı idi ki, cənubdan – İrandan bütpərəstlər – atəşpərəstlər bura tez–tez gələ bilsinlər. Şəhərdən Sünikə çox məsafə qət etmədən getmək mümkün olmalı idi. Şəhər Vatnean düzünə yaxın olmalı idi. Tsri şəhəri məskutların yaşadığı, məskunlaşdığı tarixi əraziyə, Beyləqana da yaxın olmalı idi. Beləliklə, Tsri şəhərinin müasir Qarabağ bölgəsində, Xoca-

vənd rayonu ərazisində (və yaxud Xocavənd ərazisinə yaxın bölgələri də istisna etmək olmaz) yerləşməsi Moisey Kalankatuklunun verdiyi məlumatlara daha uyğun gəlir.

Moisey Kalankatuklu xristian müqəddəslərin cəsədlərinin yerləşdirilməsi, tapılması, məbədlərin inşa edilməsi, xristianlığın yayılması və möhkəmlənməsi və s. məsələlərlə bağlı Tsri/Sri/İri/Tri şəhərindən bəhs edərək yazır: "...Qriqoris özü də bütün bunlardan çəkinirdi və buna görə də o, özü ilə ən vacib və ən qiymətli mükafat kimi İoannın atası əzəmətli birinci baş kahin və şəhid Zaxariyanın təmiz qan parçasını və İsanın gözəl dininə inanan və Nikomediya şəhərində şəhid çələnginə layiq görülən müqəddəs Pantaleonun qaxımış cəsədini aparmışdı. Həmin şəhidlərin qaxımış cəsədlərini Qriqoris Albaniyanın böyük şəhəri İriyə (Tsri/Tri/Sri/İri) aparır, orada kiçicik bir kilsə tikdirir və böyük ehtiyatla həmin cəsədləri orada yerləşdirib, Daniyel adlı bir keşişi təyin edir ki, həmin müqəddəs cəsədlərə İsa naminə qulluq etsin. Özü ilə əxlaqlı və İsanın əmrlərinə sadiq olan şagirdləri və müqəddəs Zaxariyanın və şəhid Pantaleonun qaxımış cəsədlərinin qalmış hissələrini götürərək, Qriqoris Məskutlar ölkəsinə gedib, orada məskutlar çarı Sanesanın hüzuruna gəlir. ...Onlar gənc Qriqorisi xam atın quyruğuna bağlayıb onu Vatnean adlı çölə buraxdılar. Müqəddəs Qriqoris belə şəhid oldu. Onun şagirdləri meyidini tapıb Haband vilayətinin Amaras şəhərinə gətirdilər və oradakı kilsənin şimal tərəfində yerləşən sövməədə əbədi rahatlığını tapdı. ...Elə bu zaman müstəhkam Tsri şəhəri Alban çarının əleyhinə üsyan edib İran şahına kömək etməyə başlayır və bundan istifadə edən Ərgeslər gəlib şəhəri əllərinə keçirirlər. Onlar şəhərin gənc Qriqorisin şagirdi olan Daniyel adlı keşişini tapıb, onun özünü və yanındakı oğlanı öldürdülər. Keşişin yanında qalan gənc çilb idi. ...Bəzi suriyalı keşişlər onların meyidlərini Haku kəndinə aparıb müqəddəs guşəyə qoydular və sonra üzərində bir vəng tikdirdilər. Deyilənə görə onların qaxımış cəsədləri bu günə qədər ordadır. Bütün bunlar Alban çarı II Vaçenin dövründə olub. Alban çarı Mömin III Vaçaqanın hakimiyyət illərinə qədər şəhidlərin müqəddəs qaxımış cəsədləri gizlin və sirr altında qalırdı." [M.Kalankatuklu, I, 10].

Bu geniş məlumatdan aydın görünür: **1.** Tsri şəhəri Arsak əyalətinin Haband vilayətinin yaxınlığında olmuşdur. **2.**Tsri şəhəri Amarasın yaxınlığında idi. Tədqiqatlar və mənbə məlumatları nəticəsində müəyyən olunmuşdur ki, Amaras Haband vilayətinin ərazisində idi. Sonralar bu vilayət Amaras vilayəti adlanmışdır. **3.** Arsak vilayətinin Haku məntəqəsi də Tsri şəhərinin yaxınlığında olub və bu yaşayış məntəqələri eyni bölgədə yerləşmişdir. **4.** Məskutların çarı Sanesan – Sanaturkun Paytakaranda – Beyləqanda fəaliyyəti tarixşünaslıqda geniş şəkildə öz əksini tapmışdır [daha geniş bax: 5, 163-177]. **5.** Coğrafi təsvir və mövqeyə görə belə hesab etmək olar ki, Qriqorisin şəhid edildiyi çöl – düzənlik olan Vatnean adlı yer indiki Beyləqan rayonu ərazisindəki Haramı düzü və yaxud müasir Beyləqan və Xocavənd rayonlarının düzənlik ərazisi ola bilər və bura Xocavəndə, tarixi Arsak vilayətinə, onun Haband mahalına yaxındır. Həmin bölgədə hazırda Kurapatkin adlı düzənlik ərazi də vardır. Bütün bunlardan başqa Mil düzənliyinin tarixi Arsak əyalətinin tərkibinə daxil olan müəyyən hissəsinin Vatnean adlanması ehtimalını da istisna etmək olmaz, əlbəttə ki, "Alban tarixi"-nin dövrümüzə gəlib çıxmış qrabarca olan mətnində. **6.** Mətndə göstərildiyi kimi, bir gənc çilb keşiş Daniyelin yanında olmuş, xristianlığı mənimsəmişdir. Söhbət burada tədqiqatçı M.C.Xəlilovun yazdığı kimi çilblərin torpağından, ərazisindən deyil, konkret bir gənc çilbdən gedir və həmin çilb bura gəlmədir. **7.** "Alban tarixi"nin sitat gətirdiyimiz bu hissəsində Tsri şəhəri haqqında danışılır, sonrakı fəsillərdə isə Moisey Kalankatuklu Tsri şəhəri ilə yanaşı eyniadlı vilayətdən də bəhs edir.

Moisey Kalankatukluda maraqlı bir məlumat da vardır. O, aydın şəkildə yazır ki, Tsri şəhərinin hakimi Alban hökmdarı Arsvagenin qeyri-qanuni oğlu (***Haşiyə.*** Göründüyü kimi, Xoçkarik Alban hökmdarı Arsvagenin qeyri-qanuni oğludur. "Qeyri-qanuni" ifadəsini dəqiqləşdirmək çətindir. Hesab etmək olar ki, Xoçkarik Arsvagenin ya şahənşah II Yezdəgirdin bacısından doğulmadığı üçün

belə adlandırılmışdır, ya da Arsvagenin hansısa, belə demək mümkünsə, hüquqsuz qadından doğulan oğludur ki, onun varislik statusu olmamışdır. "Albaniya tarixi"ndə yazılır ki, Mömin III Vaçaqan Yezdəgirdin oğludur, Alban hökmdarı II Vaçenin də qardaşıdır [M.Kalankatuklu, I, 24]. "Albaniya tarixi"ndə Alban Arşakilər sülaləsinin hökmdarları sadalanarkən Yezdəgirdin adı çəkilmir [M.Kalankatuklu, I, 8]. II Vaçedən bəhs edərkən M.Kalankatuklu göstərir ki, II Vaçe Sasani şahənşahı II Yezdəgirdin bacısı oğlu idi və şahənşahın nəvəsi II Vaçenin arvadı olmuşdur [M.Kalankatuklu, I, 21]. F.C.Məmmədova yazır ki, Alban hökmdarı Arsvagen İran şahı II Yezdəgirdin bacısı ilə evlənmişdi [F.Məmmədova, 1993, s.179]. Alban Arşakilər sülaləsinin sonuncu hökmdarı Mömin III Vaçaqan II Vaçenin əmisioğlu idi [F.Məmmədova, 1993, s.184]. Belə bir nəticəyə gəlmək olar ki, Tsri şəhərinin valisi, Albaniyanın iri feodallarından biri olan Xoçkarik qatı xristian dindar olmaqla yanaşı, hökmdar Mömin III Vaçaqanın əmisioğlu olmuşdur. Başqa sözlə, Xoçkarik Alban hökmdarı II Vaçenin də anadan ögey qardaşı idi. "Alban tarixi" mənbəyinin məlumatlarına görə Xoçkorikin hökmdar Mömin Vaçaqanla münasibətləri yaxındır və belə hesab etmək olar ki, o, məhz Mömin Vaçaqan tərəfindən bu vəzifəyə təyin olunmuşdur. – **C.B.)** Xoçkarik həmin vilayətin – Arsakın Böyük Parskank vilayətinin də hakimi idi (M.Kalankatuklu, I, 29, 30). Deməli, Moisey Kalankatuklunun aydın şəkildə ifadə etdiyi kimi, Tsri şəhəri Arsak əyalətinin Böyük Parskank vilayətində yerləşirdi. Xoçkarik həm bu vilayətin, həm də vilayətin mərkəzi olan Tsri şəhərinin valisi idi. Sonrakı dövrlərdə eyniadlı Tsri vilayəti xatırlanmışdır. Belə ki, VIII-IX əsr hadisələrindən bəhs edərkən, Moisey Kalankatuklu mərkəzi Tsri şəhəri olan eyniadlı Tsri vilayətinin adını çəkir (M.Kalankatuklu, III, 16, 17). Belə bir nəticəyə gəlmək olar ki, IV-VI əsrlər dövründən fərqli olaraq VII-IX əsrlərdə bu vilayət Arsak əyalətinin Böyük Parskank vilayəti deyil, mərkəzi şəhərinin adı ilə artıq Tsri adlanırmış.

Moisey Kalankatuklu Tsri şəhəri haqqında yuxarıda göstərdiyimizdən əlavə olaraq və yuxarıdakı hadisələrin Mömin Vaçaqanın hakimiyyəti dövründə xatırlanması, üzə çıxarılması və bundan sonra baş verən hadisələrlə əlaqədar olaraq yazır: "İsanın naminə şəhid olan müqəddəslərin qaxımış cəsədləri olan yerdə, Tsri adlanan şəhərdə çoxlu əlamətdar hadisə və möcüzələr baş vermişdi.Ölkənin əhalisi bütpərəst olduğu üçün heç kəs bilmirdi ki, müqəddəs cəsədlər haradadır. ... qəddar və itaətkar İran dini həmişə Allah kilsəsinin əleyhinə olub, bu yerlərdə çox fəal idi. ...Sonra Tsri şəhərində iranlı Arkesin əliylə şəhid olanların (keşiş Daniyel və gənc çilbdən söhbət gedir. – C.B.) və cəsədləri basdırılan Haku məntəqəsində yerli kilsənin Yakov adlı keşişin gecə yuxusuna nurani sifətli və vüqarlı kişi və onunla birlikdə gözəl simalı bir gənc oğlan (mətnin bu hissəsində artıq gənc çilb deyil, şəhid olmuş gözəl simalı bir gənc kimi bəhs olunur. – C.B.) gəlib dedilər: "Dur, get Tsri şəhərinin valisi olan alban nahararı Xoçkorikin yanına və gördüklərin haqda danış. ...Keşiş tez ayağa qalxıb Tsri şəhərinə getdi və orada şəhərin valisi Xoçkoriki tapdı." [M.Kalankatuklu, I, 26]. Mətndən belə görünür ki, Haku kəndi Tsri şəhərindən o qədər də çox uzaqda deyilmiş.

"Alban tarixi"nin birinci kitabın 27 və 28-ci fəsillərində müqəddəslərin cəsədlərinin gətirilməsi üçün hökmdar Mömin Vaçaqan tərəfindən Arsak vilayətinə keşişləri göndərməsindən bəhs olunub [M.Kalankatuklu, I, 27, 28].

Bu məlumatdan da görünür ki, Haku yaşayış məntəqəsi Tsri şəhərinə yaxındır. Eyni zamanda hökmdar II Vaçedən sonra İran burada bütpərəstliyi, yəni atəşpərsətliyi yaymağa və möhkəmləndirməyə çalışmışdır. Mömin Vaçaqan keşişləri məhz Arsak vilayətinə göndərmişdi. M.Kalankatuklu göstərir ki, İran dini (yəni atəşpərəstlik) bu yerlərdə çox fəal idi. Şübhə yoxdur ki, İran dini Albaniyanın şimalında, indiki Dağıstanda, çilblərin yaşadığı ərazidə fəal olmamışdır. Araz çayı boyunca yaxın ərazilərdə, indiki Beyləqan, Füzuli və Xocavənd rayonları ərazisində fəallıq göstərmişdir. Başqa sözlə, atəşpərəstliyin ya-

yıldığı tarixi Atropatena ərazisinə yaxın olan bölgələrə İran dini təsir etməyə çalışırdı. Sasanilərin müasir Dağıstan ərazisində atəşpərəstlik təbliği həyata keçirməsi haqda geniş məlumatlar yoxdur. Bu təhlillərdən nəticə çıxararaq Tsri şəhərinin indiki Xocavənd rayonu ərazisində yerləşməsi qənaətinə bir daha gəlmək olur. Digər tərəfdən konkret olaraq Arsak vilayətinin adı çəkilmişdir. Hər halda Arsak vilayətinin hansı əraziləri əhatə etməsi tarixşünaslıqda öz əksini tapmışdır.

Tsri şəhəri haqqında bəhs edilərkən, mənbədə Haku yaşayış yerinin adını çəkilmişdir. Tsri şəhərinin lokallaşdırılması məsələsinə kompleks şəkildə yanaşmaq üçün Haku yaşayış yeri haqqında burada bəhs etmək zərurəti vardır. Bəzi müəlliflər Haku yaşayış yerinini indiki Qax ilə eyniləşdirmişlər.

Albaniyanın Qaku (Haku) kəndini A.Ə.Qaraəhmədova indiki Qax şəhəri ilə eyniləşdirmiş, bu barədə Q.Ə.Qeybullayev bəzi digər mülahizələr söyləmişdir. S.Qasımova bu yerin adının Aku kimi işlədilməsini daha düzgün hesab edir. Bundan başqa güman etmək olar ki, "Alban tarixi" mənbəyində qeyd olunmuş Kakua yer adı, bəlkə də, Qaku/Haku/Aku ilə eyniyyət təşkil etmişdir. Kakua Sakaşen vilayətinə daxil olmuşdur [6, 168]. Moisey Kalankatuklu Varaz-Trdatın hakimiyyəti dövründə, VII əsrin sonlarında Albaniyada baş vermiş aclıqdan bəhs edərkən darının bitdiyi və ya əkildiyi Sakasen vilayətinin Kaku çölünü xatırlamışdır [M.Kalankatuklu, III, 10]. "Alban tarixi" mənbəyində yuxarıda göstərdiyimiz istinadlardan göründüyü kimi, Haku konkret yaşayış məntəqəsi kimi, Kaku isə bir düzənlik, çöl olaraq göstərilmişdir. Bununla belə, Kaku çölü Sakasen vilayətində yerləşmişdir ki, bu vilayət Uti əyalətinin havarlarından biri olmuşdur. Sakasen Arsak vilayəti ilə Kür çayının arasında idi [15, 39-40]. Deməli, mənbə məlumatlarından və tədqiqatlardan belə bir nəticəyə gəlmək olur ki, Haku yaşayış məntəqəsi Arsak vilayətində yerləşmiş, Kaku çölü isə Arsak torpaqlarının qonşuluğundakı Sakasen ərazisində olmuşdur. Beləliklə, Haku yaşayış məntəqəsinin indiki Qax şəhəri ilə eyniləşdirilməsi inandırıcı görünmür. Digər tərəfdən, Kaku çölü, göründüyü kimi, indiki Qax şəhərinin yerləşdiyi coğrafi əraziyə uyğun gəlmir. Yeri gəlmişkən onu da qeyd edək ki, Moisey Kalankatuklunun "Alban tarixi"ndə bütövlükdə Albaniyanın tarixindən bəhs olunsa da, əsərin ana xəttini Albaniyanın Arsak və Uti vilayətlərində baş vermiş hadisələrin nəqli təşkil edir.

Qafqaz Albaniyasının Arsak vilayətinin ərazisi tədqiqatlar zamanı müəyyənləşdirilmişdir ki, mühüm sağsahil vilayətlərdən biri olmuş, Qarabağın dağlıq hissəsi (keçmiş Ağdərə rayonunun Tərtərçay vadisi istisna olmaqla. – C.B.) və Mil düzünün bir hissəsini əhatə etmişdir. Arsak vilayəti özü 12 xırda inzibati vahidə (mənbələrdə bu 12 vilayətin bəzilərinin və onların da bölündüyü daha kiçik inzibati vahidlərin – mahalların adları öz əksini tapmışdır. – C.B.) bölünmüşdür. Əyalətin əhalisini qarqarlar, utilər, hunlar, xəzərlər və basillər təşkil edirdi [5, 94; 15, 40]. Qriqorisin öldürülməsinə razılıq verən Sanesan (Sanatruk) Paytakaranın (Beyləqanın) hakimi idi və o, İran hökmdarının razılığı və göstərişi ilə qoşun toplayaraq Ermənistana hücum etmişdir. Mənbələrdə onun qoşunlarının kimlərdən ibarət olması haqqında da məlumatlar var ki, bu qoşunların tərkibində çilb əhalisi iştirak etmirdi. Yuxarıda göstərdiyimiz kimi, Qriqorisin Arsak vilayətinə, Tsri şəhərinə gəlməsi, burada yenidən xristianlığı yayması və bütpərəstliyə qarşı mübarizə aparması, kilsə tikdirməsi, onun Beyləqan hakimi Sanatrukun razılığı ilə öldürülməsi və s. kimi hadisələri albanşünas F.C.Məmmədova Favstos Buzandın, Movses Xorenlinin və Moisey Kalankatuklunun verdiyi məlumatlar əsasında tədqiq etmişdir [5, 164 – 177]. Bu tədqiqatlar nəticəsində də məlum olur ki, bəhs olunan hadisələr Beyləqan və onun ətrafındakı ərazilərdə cərəyan etmişdir. Deməli, Tsri şəhəri və vilayəti də bura yaxın, qonşuluqda olmalı idi.

"Alban tarixi"ndə yuxarıda haqqında bəhs olunan müqəddəslərin cəsədləri barədə danışılır, hadisələrlə əlaqədar olaraq Arsak əyalətinin Böyük Parskank vilayəti, Amaras və Tsri şəhəri haqqında bəhs olunur [M.Kalankatuklu, I, 29, 30].

Alban hökmdarı Mömin III Vaçaqanın keçirdiyi Aluen kilsə məclisində iştirak edənlərdən bəhs olunarkən Tsri vilayətinin yepiskopu Şmavon və onun ardınca Darahıc keşişi Mattenin adları çəkilir [M.Kalankatukulu, I, 33]. Belə nəticəyə gəlmək olar ki, Tsri təkcə şəhər deyil, eyni zamanda eyni adla Arsak əyalətinin vilayətlərindən biri olmuşdur. Arsak vilayətinin Darahıc kəndinin keşişi Matte "Alban tarixi"ndə birinci kitabın 28-ci fəsilində də xatırlanmışdır.

"Alban tarixi"nin ikinci kitabının 2-ci fəslində Alban katolikosu Abbasın (551-595-ci illər. Bax: 6, 255) katolikosluğnun birinci ilində (yəni 551-552-ci ildə. – C.B.) Tri (Tsri) şəhərinindən olan keşiş Danil xatırlanır [M.Kalankatuklu, II, 2].

Tsri şəhəri və eyniadlı vilayətin yerləşdiyi ərazi haqqında səhih məlumatlar "Alban tarixi"nin üçüncü kitabının 16 və 17-ci fəsillərində öz əksini tapmışdır. Belə ki, 821/822-ci ildə ("Alban tarixi"ndə erməni təqviminin 270-ci ili kimi göstərilib.) ərəblərin gizlicə Bərdədən çıxaraq Amaras vilayətini qarət etmələri, Sünik hakimi Vasakın Babəkin köməyilə Sünik ərazisində ərəbləri məğlub etməsi və Babəkin onun qızı ilə evlənməsi, knyaz Nerseh Filipp oğlunun alban knyazı Stepannosun oğlu Varaz-Tiridatı öldürməsi və s. kimi tarixi hadisələrdən bəhs edilərkən göstərilir ki, yenə həmin ildə (erməni təqviminin 279-cu ili. Miladi 830/831-ci il. – C.B.) Davon və Şapuh adlı xainlər dostluq və sülh bəhanəsiylə gələrək beyləqanlıları məğlub edən Babəki çağıran və Əbüləsəd adlanan Stepannosu öldürdülər. Beyləqanlılar Bercor vilayətinin və Ureas, Kərnəkəş, Həkkəri və Tapat kəndlərinin əhalisini qılınc və nizələrdən keçirtmişlər. Amma bunlar yenə də Babəkin əleyhinə üsyan qaldırdılar və döyüşdə ona müqavimət göstərdilər. Onlar Qoroz (mənbələrdə adı Qoroz kimi çəkilən yerin tədqiqatlar nəticəsində Gorus olması müəyyənləşdirilmişdir [6, 241]. Gorus Qarabağa, o cümlədən indiki Cəbrayıl, Qubadlı, Zəngilan və Xocavənd rayonlarına yaxındır. İlk orta əsrlər dövründə Qarabağda yaşayan tayfalardan biri də türkdilli qoroz/xoroz tayfası olmuşdur. Akademik Z.M.Bünyadov mənbə və tədqiqatlara istinadən yazır: "Qoroz vilayəti Paytakar adlanan Partav düzünə yaxındır. V.Minorski belə hesab edir ki, Qoroz indiki Şuşa rayonu yaxınlığında idi." [9, 251]. Ola bilsin ki, Qoroz indiki Qarabağ ərazisində olmuşdur. Çünki göstərildiyi kimi, Qarabağ ərazisində eyni adlı tayfalar da yaşamışdır. Belə hesab etmək olar ki, indiki Gorus mənbədə adı çəkilən Qorozla eyni olmasın, amma eyni toponimi daşısın. Qarabağ ərazisində Qoroz/Xoroz/Xoruzlu/Goruslu və s. kimi müxtəlif yer adları vardır. – C.B.) qalasında möhkəmlənərək on iki ay ərzində (Akademik Ziya Bünyadov on iki ayı on iki il kimi qeyd etmişdir. Bax: 9, səh. 211. – C.B.) Yuxarı Vaykunik (məşhur İstisu bölgəsi, müasir Kəlbəcər ərazisi, Arsak vilayətinin ərazisi. – C.B.), Bercor, Sisakan, Haband, Amaras, Bazqank, Mehank və Tsri vilayətlərini əllərində saxladılar [M.Kalankatuklu, III, 16]. Bu tarixi əraziləri şərh edən akademik Z.M.Bünyadov göstərir ki, bunların hamısı Arsakın (Qarabağın) vilayətləri idi [4, 232, qeyd 64; 9, 211].

"Alban tarixi"ndə bir daha göstərilir: "...Elə həmin vaxt beyləqanlılar gəldilər və Sünik, Tsri və Amaras vilayətlərini talan etdilər." [M.Kalankatuklu, III, 17]. Bu məlumatdan bir daha görünür ki, Albaniyanın bu vilayətləri bir – birinə yaxın qonşu olmuşdur. Belə hesab etmək olar ki, daha doğrusu belə bir fikir irəli sürmək olar ki, Arsak əyalətinin Tsri vilayəti Amaras vilayəti ilə Sünikin arasında mövcud olmuşdur və Beyləqan ərazisi bu vilayətlərə hücum etmək və yaxud gedib – gəlmək üçün yaxın idi. Tarixi faktdır ki, beyləqanlılar şimala – indiki Dağıstan ərazisinə hücum etməyiblər və bir daha qeyd edək ki, Tsri şəhəri və vilayəti şimalda olmayıbdır. Beləliklə də Tsri şəhərini Albaniyanın şimal ərazisində axtarmaq və ya lokallaşdırmaq səylərinin əsası yoxdur.

IX-X əsrlər dövrünə dair məlumatlardan sonra Albaniyanın ilk orta əsrlər dövründə böyük şəhərləri sırasında xatırlanan Tsri şəhəri haqqında məlumatlara rast gəlinmir. Belə hesab etmək olar ki, bu dövrdə baş vermiş çoxsaylı feodal qarşıdurmaları nəticəsində şəhər tənəzzül etmişdir. Digər tərəfdən bu fikri də irəli sürmək olar ki, şəhər feodal pərakəndəliyi prosesi nəticəsində əvvəlki

vəziyyətini qoruyub saxlaya bilməmiş, bu dövrdən etibarən də adı mühüm tarixi hadisələrlə əlaqədar olmadığına görə mənbələrdə öz əksini tapmamış, yaxud artıq başqa bir adla ifadə edilmişdir. Tarixdən məlumdur ki, ilk orta əsrlər dövrünün yaşayış yeri həmin dövrə aid mənbələrdə başqa bir adla, sonrakı dövrlərə aid digər mənbələrdə isə ayrı bir adla xatırlanmışdır. Bu mülahizələrə aydınlıq gətirilməsi üçün ilk növbədə Tsri şəhərinin yerləşdiyi ərazidə – tarixi Arsak əyalətinin ərazisində, başqa sözlə Amarasa yaxın bölgədəki mövcud ilk orta əsrlər dövrünə aid yaşayış yerlərində arxeoloji işlərin həyata keçirilməsi vacibdir.

"Alban tarixi"nin bütün məlumatlarında Tsri şəhəri və vilayəti Arsak ərazisində olduğu göstərilir. Belə nəticəyə gəlmək olar ki, Qafqaz Albaniyasının böyük şəhəri kimi təqdim olunan Tsri şəhərini Qarabağda, tarixi Arsak əyalətinin ərazisində, müasir Xocavənd rayonu ərazisində axtarmaq lazımdır. Bəhs olunan ərazi hazırda mənfur erməni qəsbkarlarının işğalı altında olduğundan orada arxeoloji tədqiqat aparmaq mümkün deyildir. Şübhə yoxdur ki, bəhs olunan ərazidə arxeoloji müşahidə, kəşfiyyat və qazıntı işlərini həyata keçirmək mümkün olsaydı Albaniyanın Tsri şəhərinin qalıqlarını aşkar etmək mümkün olardı. Onu da qeyd etmək lazımdır ki, Xocavənd rayonu ərazisində (Dağlıq Qarabağın keçmiş Hadrut və Martuni rayonlarının ərazisi) ilk orta əsrlər dövrünə aid yaşayış yerlərinin qalıqları və çoxlu sayda müxtəlif abidələr vardır. Tarixi Tsri vilayətinin əhatə etdiyi ərazilərə müasir Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və yaxud Ağdam və Dağlıq Qarabağın keçmiş Əsgəran rayonlarının hər hansı birinin ərazilərinin müəyyən hissəsinin daxil olması ehtimalını istisna etmək olmaz. Bizim fikrimizcə, Arsak əyalətinin Tsri vilayətini müasir Xocavənd və ya Ağdam-Əsgəran rayonları ərazisində lokallaşdırmaq fikrini də irəli sürmək olar və bu heç də əsassız görünmür.

"Alban tarixi"ndə Mömin III Vaçaqanın dövründə Albaniyanın böyük şəhərlərindən biri kimi təqdim olunan bu şəhər haqqında IX-X əsrlər dövründən başlayaraq mövcud digər mənbələrdə bəhs olunmur. Ola bilməz ki, ilk orta əsrlər dövründə Albaniyanın iri şəhərlərindən biri olmuş Tsri şəhəri IX-X əsrlərdə və ondan sonrakı dövrdə də mövcud olmasın. Heç şübhə yoxdur ki, bu şəhər X əsrdən etibarən başqa bir adla tanınmış, tədricən bu dövrdə əvvəlki inkişafını qoruyub saxlaya bilməmiş, tənəzzülə uğramış və nəhayət XIII əsrdə monqolların dağıdıcı və viranedici hücumlarından sonra Beyləqan kimi xarabazarlığa çevrilmişdir.

Albaniyanın ilk orta əsr şəhərləri və digər yaşayış yerlərinin adları həmin dövr mənbələri ilə sonrakı dövr, xüsusilə XII-XIII əsrlərə aid mənbələrində fərqli şəkildə öz əksini tapmışdır. Məsələn, Kaqankat-Kalankatuk XII-XIII əsrlərə aid mənbələrində Akanaberd, Bərdəkür-Berdakur-Berdak-Berdakan şəhəri isə Anapat kimi qeyd edilmişdir.

Qarabağ bölgəsində, tarixi Arsak əyalətinin ərazisində arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmiş bəzi şəhər yerlərini də nəzərdən keçirməklə Tsri şəhərinin lokallaşdırılması ilə bağlı məsələyə kompleks şəkildə yanaşmaqda fayda vardır. Belə ki, Qarabağ bölgəsinin – tarixi Arsak əyalətinin ərazisindəki bütün mövcud abidələri nəzərdən keçirək.

Diqqəti cəlb edən faktlardan biri də XIII əsr müəllifi Yaqut əl-Həməvi tərəfindən Arranda, Beyləqan yaxınlığında Qarqar şəhərinin xatırlanmasıdır [22, 30]. R.B.Göyüşov qeyd edir ki, son antik və ilk orta əsrlərdə Qarabağın bir hissəsi Qarqarlar ölkəsi adlanmışdır. Əsasən indiki Qarqar çayı hövzəsində yaşamış qarqar tayfası qədim müəlliflərin verdiyi məlumata görə, Alban tayfa ittifaqına daxil idi. Qarqarlar haqqında məlumat verən müəlliflər, onu Albaniyanın ən qədim və ən iri tayfalarından biri hesab etmiş və ilk orta əsrlərdə onların Mil düzünün bir hissəsinə yayıldığını göstərmişlər. Burada qarqarların özlərinə məxsus eyniadlı şəhəri də mövcud olmuşdur [13, 5]. Qarqarlara məxsus arxeoloji abidələr hələ də kifayət qədər öyrənilməmişdir. Yalnız bir həqiqət məlumdur ki, bu tayfa əvvəlcə dağlarda məskunlaşdığı halda, sonralar düzən hissəyə enmişdir. Albaniyada xristianlığı ilk qəbul edən tayfalardan biri məhz qarqarlar olmuşdur [13, 6].

Mənbə məlumatları və tarixi-arxeoloji

tədqiqatlardan məlum olur ki, Arsak əyalətinin əhalisi içərisində qarqarların xüsusi çəkisi olmuşdur.

M.C.Xəlilov Qarqar şəhəri haqqında bəhs edərkən göstərir ki, Mil düzündə aşkar edilmiş yaşayış yerləri arasında Qarqar şəhərinə Qalatəpə abidəsi uyğun gəlir. Qalatəpə şəhərgahının Beyləqan yaxınlığında, Qarqar çayı sahilində yerləşməsi Qarqar şəhərinin Qalatəpə ilə eyniləşdirilməsinə müəyyən əsaslar verir. Buradan toplanmış kəşfiyyat materialları yaşayış yerinin təqribən antik dövrdən orta əsrlərədək fasiləsiz fəaliyyət göstərdiyini müəyyənləşdirir. IX-XIII əsrlərə aid yazılı mənbələrin məlumatlarına görə, şəhərin əsası VI əsrdə qoyulmuşdur (Bu dövr yazılı mənbələrinin bir çox Azərbaycan şəhərlərinin – Gəncə, Bərdə, Şəmkir və s.-lərinin əsasının qoyulması ilə bağlı verdikləri məlumatların tədqiqatlar nəticəsində çox vaxt doğru olmadığı müəyyən edilmişdir. – C.B.). XIV əsr müəllifi Həmdullah Qəzviniyə Arrandakı Qarqar şəhəri artıq məlum deyildi [3, 42-43]. Bu da bir daha göstərir ki, bu şəhər Beyləqanla bir vaxtda monqollar tərəfindən dağıdılmışdır.

Ağcabədi rayonunun Salamanbəyli kəndinin 4 km-liyində yerləşən Qalatəpə abidəsini bir çox tədqiqatçılar Albaniyanın ilk orta əsr şəhərlərindən biri olan Ayniana-Yunan ilə eyniləşdirmişlər [17]. Bu abidənin mənbə məlumatlarına görə Qarqar şəhərindən daha çox Ayniana-Yunan şəhərinə daha çox uyğun gəldiyi R.Məlikov ilə T.Əliyevin tədqiqatından məlum olur. Beyləqan şəhərinin görkəmli tədqiqatçısı Q.M.Əhmədov da vaxtilə Qalatəpə abidəsinin Ayniana-Yunan şəhəri olması haqqında fikir irəli sürmüşdür. Deməli, Qarqar şəhərinin yeri müəyyənləşməmiş qalır.

Beləliklə, ilk orta əsrlər dövründən mövcud olan Tsri şəhərinin sonrakı əsrlərdə Arranın Qarqar şəhəri kimi, Qarqar adı ilə tanınması ehtimalını da istisna etmək olmaz. Həmçinin Ağdam rayonunun işğal altındakı ərazisində, Xaçın çayın sağ və sol sahilində erməni arxeoloqlar tərəfindən 2006-2007-ci illərdə aparılmış qanunsuz arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş ilk orta əsrlər dövrünə aid olunan böyük şəhər yerinin [3, 56-60] də Tsri şəhəri olması ehtimalını da nəzərdən qaçırmaq olmaz. Danılmaz faktdır ki, Tsri şəhəri Arsak əyaləti ərazisində yerləşmiş, əyalətin vilayətlərindən biri də Tsri vilayəti adlanmışdır. Tsri şəhərinin lokallaşdırılması ilə bağlı yuxarıda göstərdiyimiz fikirlər içərisində bu şəhərin Xocavənd və ya Ağdam-Əsgəran rayonları ərazisində yerləşməsi fikri daha çox üstünlük təşkil edir. Bu şəhərin tarixi Arsak əyalətinin ərazisində, Qarabağ bölgəsində yerləşməsi isə şübhəsizdir və onu bu ərazilərdə axtarmaq lazımdır. Gələcəkdə, hal-hazırda erməni qəsbkarlarının işğalı altında olan bölgələrimizdə aparılacaq arxeoloji tədqiqatlar zamanı bütün bu kimi məsələlərə aydınlıq gətiriləcəkdir.

## ƏDƏBİYYAT

1. Mehdiyeva G.H. Tarixi mənbələrdə bəzi Azərbaycan toponimləri (Musa Kalankatuklunun "Albaniya tarixi" əsəri əsasında). // Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti və Gəncə Dövlət Universiteti, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr edilmiş "Azərbaycanşünaslığın aktual problemləri" II Beynəlxalq elmi konfransın materialları, 4-7 may, Bakı – Gəncə 2011-ci il, II hissə, səh.59-65.
2. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı, Bakı Universitetinin nəşriyyatı, 1991. 312 s.
3. Xəlilov M.C. Albaniyanın yaşayış yerləri (IV – X əsrlər). Bakı, "Xəzər Universiteti" nəşriyyatı, 2010, 284 s.
4. Kalankatuklu M. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. (Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur.), Bakı, Elm, 1993, 270 s.
5. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 262 s.
6. Xəlilov M.C. Albaniyanın xristian abidələri (IV – X əsrlər). Bakı, "Xəzər Universiteti" nəşriyyatı, 2011, 344 s.
7. Azərbaycan tarixi (7 cilddə), II cild, Bakı, Elm, 2007, 608 s.
8. Azərbaycan tarixi üzrə qaynaqlar. (S.Əliyarov və Y.Mahmudovun redaktəsi ilə)

Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 1989, 328 s.
9. Bünyadov Z.M. Azərbaycan VII – IX əsrlərdə. Bakı, Şərq – Qərb Nəşriyyatı, 2007, 424 s.
10. Bağırzadə C.V. Qafqaz Albaniyasının bəzi yaşayış yerlərinin lokallaşdırılması, müqəddəs Yelisey və Urekvəng məbədləri haqqında (mənbə məlumatları və tarixi – arxeoloji tədqiqatlar əsasında). // Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti, "Qafqaz tarixinin aktual məsələləri" Beynəlxalq elmi konfransın materialları, Gəncə 15–16 oktyabr 2015-ci il, Gəncə, GDU-nun nəşriyyatı, I hissə, 2015, s.75-87.
11. Göyüşov R.B. Amaras – Ağoğlan. Bakı, Elm, 1975, 98 s.
12. Göyüşov R.B. Azərbaycan arxeologiyası. Bakı, İşıq nəşriyyatı, 1986, 186 s.
13. Göyüşov R.B. Qarabağın keçmişinə səyahət. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 83 s.
14. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə, Bakı, Təhsil, 2006,400 s.
15. Piriyev V.Z. Azərbaycanın tarixi – siyasi coğrafiyası. Bakı, Müəllim nəşriyyatı, 2006, 148 s.
16. Vəlixanlı N. IX – XII əsr ərəb coğrafiyaşünas – səyyahları Azərbaycan haqqında. Bakı, 1974, 224 s.
17. Məlikov R., Əliyev T. Ayniana-Yunan şəhəri haqqında (yazılı mənbələr və son arxeoloji tədqiqatlar əsasında) // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, "Azərbaycan Arxeologiyası və Etnoqrafiyası" jurnalı, 2010, № 1. s.113-127.
18. Геюшев Р.Б. Христианство в Кавказской Албании. Баку, Элм, 1984, 192 с.
19. Мамедова Г.Г. Культовое зодчество Кавказская Албании (IV–XIV вв.). Баку, Элм, 1997, 248 с.
20. Мамедова Г.Г. Зодчество Кавказской Албании. Баку, Чашыоглу, 2004, 224 с.
21. Историческая география Азербайджана. Баку, Элм, 1987, 148 с.
22. Якут ал-Хамави. Муджат ал-булдан. Хамдуллах Казвини. Нузхат ал-кулуб. Баку, Элм, 1983, 68 с.
23. Bağırzadə C.V. Kaqankat (Kalankatuk) şəhərinin tarixi-arxeoloji oçerki. Bakı, Elm və təhsil nəşriyyatı, 2013, 84 s.
24. Xəlilli X.D. Sovet tarixşünaslığı – milli ölüm elmi. Bakı, "MBM" MMC, 2010, 400s.
25. Əliyev Y.V. Azərbaycanın qədim türk runik yazılı abidələri. Bakı, ADPU-nun nəşriyyatı, 2008, 120 s.
26. Əliyev Y.V. Qədim türk əlifbası: mənşəyi, tarixi, təşəkkülü. Bakı, ADPU-nun nəşriyyatı, 2008, 234 s.
27. Bəxtiyar Tuncay. Qafqaz Albanlarının dili və ədəbiyyatı. Bakı, Qanun nəşriyyatı, 2010, 368 s.

***Джавид Векил оглы Багирзаде***

## ЦРИ – ГОРОД КАВКАЗСКОЙ АЛБАНИИ ЭПОХИ РАННЕГО СРЕДНЕВЕКОВЬЯ
### (на основе источников и историко – археологических исследований)

### *РЕЗЮМЕ*

В письменных источниках относительно Кавказской Албании упомянуты названия многочисленных поселений и городов. Особенно в эпоху раннего средневековья в Кавказской Албании было много населенных пунктов, местонахождение которых не было установлено. Изучение местонахождения городов Кавказской Албании раннесредневекового периода до сих пор сохраняет свою научную актуальность. Одним из городов Кавказской Албании раннего средневековья сохранившийся в письменных источниках является город Цри. Среди исследователей существуют различные мнения о локализации этого города. Местонахождение города Цри исследователь Ю.Джафаров отождествляет с деревней Сор Ходжавендского района, К.Патканов с расположенным в Дагестане Сариром, А.Кудрявцев с Дербентом, а М.Гаджиев с Сахуром. Согласно Ф.Мамедовой, одной из исследователей истории Кавказской Албании, город Цри располагался южнее города Кабала.

Огромную ценность в изучении поселений и городов Кавказской Албании

представляет произведение средневекового албанского историка Моисея Каланкатуйского «История Агван». Ввиду того, что этот исторический труд дошел до наших дней не на языке местного населения Кавказской Албании, трудно высказывать какое – либо мнение по поводу истинного названия города Цри. Упомянутые в письменных источниках названия поселений и городов не имеют, как правило, прямых аналогий в современной топонимике, в названиях ныне известных памятников албанского времени на территории Азербайджана, что затрудняет их изучение и идентификацию. По сведениям Моисея Каланкатуйского можно заключить, что город Цри – один из известных городов Кавказской Албании, находился в исторической области Арцах, на территории нынешнего Ходжавендского района. На основании письменных источников известно, что город Цри, находившийся на территории Арцаха был расположен неподалеку от области Хабанд, в том числе от города Амарас. Следует особо выделить сведения Моисея Каланкатуйского, отличающиеся точностью и полнотой информации о географическом расположении города Цри. Упоминая город Цри, Моисей Каланкатуйский охарактеризовал его как один из развитых городов Кавказской Албании. Сегодня эта территория оккупирована армянскими захватчиками, но если была бы возможность проведения археологического исследования этого района, то несомненно были бы обнаружены остатки города Цри.

***Javid Vekil oglu Bagirzade***

## ABOUT EARLY MEDIEVAL CITY TSRI OF CAUCASIAN ALBANIA (Based on studies of source data and historical - archeological investigations)

### *SUMMARY*

There existed a number of cities shown in the sources of Caucasian Albania. Especially a number of living settlements of Caucasian Albania existed in early medieval period. The places of not all living settlements that were shown in the sources have not been determined yet. That is why the study of early medieval living settlements of Caucasian Albania still preserves its scientific actuality. One of the early medieval cities of Caucasian Albania shown in the sources is Tsri city. There are different views about the localization of Tsri city among explorers. Y.Cafarov who is one of the explorers of Tsri city which was one of the biggest cities of Caucasian Albania during early medieval identifies Tsri city with Sor village of Khojavend region, K.Patkanov identifies it with Serir in Dagistan region, A.Kudryavtsev identifies it with Derbend, M.Hajiyev identifies it with Sakhur. According F.Mammadova whe is the explorer of Albania studies Tsri city is situated in the south of Gabala city.

Detailed and broad information about Tsri city was given in Moisey Kalankatuklu’s work “History of Albania”. This work has not been preserved nowadays in the native language of local population it is difficult to say a scientific thought about the original name of Tsri city.

According to Moisey Kalankatuklu’s information becomes clear that Tsri city which was one of the famous city of Caucasian Albania existed in historical Arsak province, to be more exact in the area of modern Khojavend region. According to source data, it becomes clear that Tsri city is situated in Haband district of Arsak province, as well as near the city of Amaras. While dealing with Tsri city Moisey Kalankatuklu characterizes it as one of the biggest cities of Albania.

Archeological exploration cannot be carried in this place as this area was captured by Armenian invaders. If it was possible to carry out archeological excavations it would be possible to discover the ruins of Tsri city in thes place.